| | |
|---|---|
| **AKTIN NÖVÜ** | **AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARLARI** |
| **QƏBUL EDİLDİYİ TARİX** | **30.01.2007** |
| **QEYDİYYAT NÖMRƏSİ** | **19** |
| **ADI** | **Azərbaycan Respublikasında baytarlıqla bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında** |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-01-2007, Nəşr nömrəsi: 01, Maddə nömrəsi: 63)** |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | **30.01.2007** |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | **150.000.000** |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | **01.07.2011** |

**Azərbaycan Respublikasında baytarlıqla bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Baytarlıq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 22 noyabr tarixli 316 nömrəli Fərmanının ~~1.18-ci,~~ 1.35-ci, 1.38-ci, 1.50-ci, 1.51-ci, 1.52-ci, 1.58-ci və 1.61-ci bəndlərinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:** [1]

1. "*Heyvan xəstəliklərinin diaqnostikası və profilaktikası üzrə baytarlıq tədbirlərinin həyata keçirilməsinə nəzarət edilməsi və bu məqsədlə hər bir heyvanı və ya heyvanlar qrupunu müşahidə etməyə imkan verən kənd təsərrüfatı heyvanlarının identikləşdirilməsinin aparılması* Qaydaları", Heyvanların saxlanması, yetişdirilməsi və istifadə olunması Qaydaları", "Heyvanların yetişdirilməsi, çoxaldılması, tədarükü (kəsimi), istifadəsi və dövlət baytarlıq nəzarətində olan məhsulların istehsalı, saxlanması, emalı, daşınması, satışı və istifadəsi ilə məşğul olan şəxslərin sağlamlığının heyvan və insanlar üçün ümumi olan yoluxucu xəstəliklərdən qorunması Qaydaları", "Baytarlıq preparatlarının dövriyyəsinə dair vahid statistika hesabatı forması və təqdim edilməsi Qaydası" və "Baytarlıqda istifadə edilən bioloji, güclü təsiredici və resept əsasında buraxılan baytarlıq preparatlarının Siyahısı" təsdiq edilsin (əlavə olunur). [2]

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A.RASİZADƏ**

Bakı şəhəri, 30 yanvar 2007-ci il
19

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2007-ci il 30 yanvar tarixli 19 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

***Heyvan xəstəliklərinin diaqnostikası və profilaktikası üzrə baytarlıq tədbirlərinin həyata keçirilməsinə nəzarət edilməsi və bu məqsədlə hər bir heyvanı və ya heyvanlar qrupunu müşahidə etməyə imkan verən kənd təsərrüfatı heyvanlarının identikləşdirilməsinin aparılması*** [3]

## QAYDALARI

## 1. ÜMUMİ MÜDDƏALAR

1.1. Bu Qaydalar "Baytarlıq haqqında" Azərbaycan Respublikası Qanununun *26.1-ci maddəsinə əsasən* hazırlanmışdır və *heyvan xəstəliklərinin diaqnostikası və profilaktikası üzrə baytarlıq tədbirlərinin həyata keçirilməsinə nəzarət edilməsi və bu məqsədlə hər bir heyvanı və ya heyvanlar qrupunu müşahidə etməyə imkan verən kənd təsərrüfatı heyvanlarının identikləşdirilməsinin aparılması qaydalarını* müəyyən edir. [4]

1.2. Heyvan xəstəliklərinin diaqnostikası və profilaktikası üzrə baytarlıq tədbirlərinin həyata keçirilməsinə nəzarət etmək məqsədilə hər bir heyvanı və ya heyvanlar qrupunu müşahidə etməyə imkan verən kənd təsərrüfatı heyvanlarının identikləşdirilməsinin aparılması məcburidir.

~~1.3. Dövlət baytarlıq nəzarətində olan məhsulların istehsal, tədarük(kəsim), emal, saxlanma və satış obyektlərinin, bazarların və digər baytarlıq nəzarəti obyektlərinin uçotunu aparmaq üçün onların identikləşdirilməsi aparılmalıdır.~~ [5]

1.4. *Heyvanların identikləşdirilməsi (kodlaşdırılması) xərcləri mülkiyyətçilərin vəsaiti hesabına maliyyələşdirilir.* [6]

1.5. Heyvandarlıqla məşğul olan hüquqi və fiziki şəxslər istifadəsində olan heyvanların~~, heyvandarlıq müəssisələrinin, heyvan mənşəli məhsullar və xammal istehsal, emal, saxlanma və satış obyektlərinin~~ identikləşdirilməsini və *heyvanlara identikləşdirmə haqqında şəhadətnamələrin* rəsmiləşdirilməsini təmin etməlidirlər. [7]

1.6. *Heyvanların identikləşdirilməsi (kodlaşdırılması) Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (bundan sonra - Agentlik) tərəfindən Avtomatlaşdırılmış Qida Təhlükəsizliyi İnformasiya Sistemi (AQTİS) vasitəsilə həyata keçirilir.* [8]

*1.7. Kənd təsərrüfatı heyvanlarının identikləşdirilməsi üçün istifadə edilən məlumat və göstəricilər Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 23 dekabr tarixli 897 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elektron kənd təsərrüfatı" informasiya sistemi haqqında Əsasnamə"yə uyğun olaraq, "Elektron kənd təsərrüfatı" informasiya sisteminə real vaxt rejimində ötürülür.* [9]

## 2. HEYVANLARIN İDENTİKLƏŞDİRİLMƏSİNİN APARILMASI

*2.1. Heyvanların identikləşdirilməsi onlara fərdi və ya qrup halında identikləşdirmə nömrəsinin və identikləşdirmə haqqında şəhadətnamənin verilməsindən ibarətdir.*

*İdentikləşdirmə işlərinin aparılması üçün heyvanlar bu Qaydaların 2.7-ci bəndinə uyğun olaraq fərdi qaydada və ya qrup halında nişanlanmalıdırlar.* [10]

2.2. Heyvanların *nişanlanması* üçün *Agentlik* tərəfindən müəyyən olunmuş xüsusi tanınma nömrəsindən istifadə edilir. [11]

2.3. Hüquqi və ya fiziki şəxslər mülkiyyətində olan heyvanların identikləşdirilməsi üçün lazım olan miqdarda *nişanlar* əldə etməlidirlər. [12]

2.4. Kənd təsərrüfatı heyvanlarının *nişanlanması* dövlət baytarlıq müfəttişlərinin nəzarəti altında həyata keçirilir.

2.5. Hüquqi və ya fiziki şəxslər tərəfindən yeni heyvanlar əldə olunduqda, onlara məxsus heyvanlar itirildikdə, satıldıqda və ya kəsildikdə (öldükdə) həmin şəxslər müvafiq tədbirlərin görülməsi üçün dövlət baytarlıq müfəttişinə məlumat verməlidirlər.

2.6. Heyvanların digər şəxslərə satılması və ya verilməsi *identikləşdirmə haqqında şəhadətnamənin* həmin şəxslərə təqdim

edilməsi ilə müşayiət olunmalıdır.[13]

2.7. *Kənd təsərrüfatı heyvanları doğulduqdan sonra 1 ay müddətində nişanlanmalıdırlar. İribuynuzlu və xırdabuynuzlu heyvanların və donuzların nişanlanması hər iki qulağına birka, təkdırnaqlı heyvanların, dəvələrin və qulaq seyvanı kiçik olan xırdabuynuzlu heyvanların nişanlanması mikroçip, quşların nişanlanması isə qrup halında onların saxlanc yerlərinə birka vurulmaqla həyata keçirilir.*

2.8. *Birkaların təsviri, mikroçiplərin spesifikasiyası Agentlik tərəfindən müəyyən edilir.*

2.9. Heyvanların *nişanlanması* onların xarici görünüşünə və estetik zövqə mənfi təsir etməməlidir.

*2.10. Kənd təsərrüfatı heyvanlarının nişanlanmasının yekunu olaraq, dövlət baytarlıq müfəttişi Avtomatlaşdırılmış Qida Təhlükəsizliyi İnformasiya Sistemi (AQTİS) vasitəsilə identikləşdirmə haqqında şəhadətnamə tərtib edir və həmin şəhadətnamə heyvan sahibinə verilir. Heyvanların identikləşdirilməsi haqqında şəhadətnamənin nümunəsi və şəhadətnaməyə daxil edilməli olan məlumatların siyahısı Agentlik tərəfindən müəyyən edilir.*[14]

Kənd təsərrüfatı heyvanları təsərrüfat ərazisindən kənara çıxarılaraq başqabir yerə aparıldıqda, həmin heyvanlara və ya heyvanlar qrupuna *Agentlik* tərəfindən "Heyvanların (və ya heyvan qrupunun) identikləşdirilməsi haqqında şəhadətnamə" verilir (1 nömrəli əlavə),

**~~3. DÖVLƏT BAYTARLIQ NƏZARƏTİNDƏ OLAN MƏHSULLARIN İSTEHSAL, TƏDARÜK (KƏSİM), EMAL, SAXLANMA VƏ SATIŞ OBYEKTLƏRİNİN, BAZARLARIN VƏ DİGƏR BAYTARLIQ NƏZARƏTİ OBYEKTLƏRİNİN UÇOTUNU APARMAQ ÜÇÜN ONLARIN İDENTİKLƏŞDİRİLMƏSİ~~**

~~3.1. Dövlət baytarlıq nəzarətində olan məhsulların istehsal, tədarük(kəsim), emal, saxlanma və satış obyektlərinin, bazarların və digər baytarlıq nəzarəti obyektlərinin (bundan sonra - müəssisə)uçota alınması - identikləşdirilməsi üçün həmin müəssisənin mülkiyyətçisi (və ya digər səlahiyyətli şəxs) rayon (şəhər) dövlət baytarlıq orqanına ərizə ilə müraciət edir.~~

~~3.2. Dövlət baytarlıq orqanı tərəfindən müəssisənin identikləşdirilməsi yalnız mülkiyyətçi (və ya digər səlahiyyətli şəxs) və dövlət baytarlıq orqanı arasında bağlanmış müqavilə əsasında həyata keçirilir.~~

~~3.3. Dövlət baytarlıq orqanı müəssisənin uçota alınması - identikləşdirilməsiüçün həmin müəssisəyə baxış keçirir, müəssisənin baytarlıq-sanitariya tələblərinə uyğunluğunu müəyyən etdikdən sonra həmin müəssisənin "Baytarlıq nəzarətində olan müəssisənin identikləşdirilməsi haqqında şəhadətnamə"sini bu Qaydaların 2 nömrəli əlavəsinə uyğun tərtib edir və xüsusi qeydiyyat kitabında müəssisənin mülkiyyətçisinin həmin şəhadətnaməni alması barədə qeyd aparır.~~

-

**~~4. HEYVANLARIN KARANTİN XƏSTƏLİKLƏRİNİN STATİSTİK UÇOTUNUN APARILMASI VƏ HESABATLARIN VERİLMƏSİ~~**

~~4.1. Heyvanların karantin xəstəliklərinin statistik uçotunun aparılmasındaməqsəd heyvanlar arasında yayılmış karantin xəstəliklərinin siyahısını tərtib etməkdən, heyvanların xəstəliyinin hərəkətinin və ölüm halları faktlarınıntoplanmasından ibarətdir.~~

~~4.2. Heyvanların karantin xəstəliklərinin statistik hesabatı bu Qaydaların 3nömrəli əlavəsində göstərilmiş formaya uyğun hər ay yerli dövlət baytarlıq orqanları tərəfindən hazırlanaraq hesabat dövründən sonrakı ayın 5-nə qədərDövlət Baytarlıq Nəzarəti Xidmətinə təqdim edilir.~~

~~4.3. Karantin xəstəliklərinin hesabat formaları iki nüsxədə tərtib olunur.Hesabat formasının bir nüsxəsi yerli dövlət baytarlıq orqanında qalır, digəri isə Dövlət Baytarlıq Nəzarəti Xidmətinə göndərilir.~~

~~4.4. Dövlət Baytarlıq Nəzarəti Xidməti təqdim edilmiş hesabatları təhlil edərəkonları icmal şəklində hər ay, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə təqdim edir.~~

"*Heyvan xəstəliklərinin diaqnostikası və profilaktikası üzrə baytarlıq tədbirlərinin həyata keçirilməsinə nəzarət edilməsi və bu məqsədlə hər bir heyvanı və ya heyvanlar qrupunu müşahidə etməyə imkan verən kənd təsərrüfatı heyvanlarının identikləşdirilməsinin aparılması* Qaydaları"na
1 nömrəli ƏLAVƏ[15]

**AZƏRBAYCAN RESPUBLİKASININ**
***Qida Təhlükəsizliyi Agentliyinin regional bölməsi***
**Heyvanların (və ya heyvan qrupunun) identikləşdirilməsi haqqında**
**ŞƏHADƏTNAMƏ**

_______________________________
____________________________________________________________________________
(heyvan (və ya heyvan qrupunun) sahibinin adı (fiziki şəxs üçün - soyadı, adı, atasının adı), ünvanı)

məxsus ________________________________________________________________________
(heyvanın (və ya heyvan qrupunun) növü)

____ -li identikləşdirmə kodu verilmişdir.

Şəhadətnamənin verilmə tarixi "___" _________ 200__ il.

~~Rayon (şəhər)~~ dövlət Baytarlıq müfəttişi _________________________
(soyadı, adı, atasının adı)

(imza)

M.Y.

"Heyvanların karantin xəstəliklərinin statistik uçotunun və kənd təsərrüfatı heyvanlarının identikləşdirilməsinin aparılması, habelə dövlət baytarlıq nəzarətində olan məhsulların istehsal, tədarük (kəsim), emal, saxlanma və satış obyektlərinin, bazarların və digər baytarlıq nəzarəti obyektlərinin uçotunu aparmaq üçün onların identikləşdirilməsi Qaydaları"na

2 nömrəli ƏLAVƏ[16]

-

**AZƏRBAYCAN RESPUBLİKASININ KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ YANINDA DÖVLƏT BAYTARLIQ XİDMƏTİ RAYON (ŞƏHƏR) BAYTARLIQ İDARƏSİ**
**Baytarlıq nəzarətində olan müəssisənin identikləşdirilməsi haqqında**
**ŞƏHADƏTNAMƏ**

________________________________
-
________________________________________________________________________________
(müəssisənin adı, ünvanı fəaliyyət növü)
-
________________________________________________________________________________
-li identikləşdirmə kodu verilmişdir.
-

Şəhadətnamənin verilmə tarixi "__" ____________ 200__ il.

-
-

Rayon (şəhər) dövlət ________________________
baytarlıq müfəttişi (soyadı, adı, atasının adı)

-

M.Y. ____________________(imza)

-

"Heyvanların karantin xəstəliklərinin statistik uçotunun və kənd təsərrüfatı heyvanlarının identikləşdirilməsinin aparılması, habelə dövlət baytarlıq nəzarətində olan məhsulların istehsal, tədarük (kəsim), emal, saxlanma və satış obyektlərinin, bazarların və digər baytarlıq nəzarəti obyektlərinin uçotunu aparmaq üçün onların identikləşdirilməsi Qaydaları"na

3 nömrəli ƏLAVƏ

-
-

**STATİSTİKA HESABATI**

Hara göndərilir________________________________________
təşkilatın adı, ünvanı
Göndərən ________________________________________
təşkilatın adı, ünvanı
-

**HEYVANLARIN KARANTİN XƏSTƏLİKLƏRİNİN STATİSTİK HESABATI**

____________________200__ ci il

-
-
-

| **Heyvanların növü və xəstəliklərin adı** | **Xəstəliyin kodu** | **Hesabat dövründə** | | | **Hesabat dövrünün sonuna qalıb** | |
|---|---|---|---|---|---|---|
| | | **aşkar edilən qeyri-sağlam məntəqə** | **neçə baş heyvan xəstələnib** | **neçə baş heyvan ölüb** | **cəmi qeyri-sağlam məntəqələr** | **neçə baş xəstə heyvan** |
| **A** | **B** | **1** | **2** | **3** | **4** | **5** |
| - | - | - | - | - | - | - |

Hesabatı tərtib edənin soyadı, adı, atasının adı
"_____" _________ 200_ ci il ________________ ______________
(vəzifə) (imza)

-

Qeyd: Hesabat forması yerli dövlət baytarlıq orqanları tərəfindən hesabat dövründən sonrakı ayın 5-nə qədər Dövlət Baytarlıq Nəzarəti Xidmətinə təqdim olunur. Dövlət Baytarlıq Xidməti icmal hesabatı ayın 20-dən gec olmayaraq Dövlət Statistika Komitəsinə təqdim edir. [17]

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2007-ci il 30 yanvar tarixli 19 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

## Heyvanların saxlanması, yetişdirilməsi və istifadə olunması

## QAYDALARI

### 1. ÜMUMİ MÜDDƏALAR

1.1. Bu Qaydalar "Baytarlıq haqqında" Azərbaycan Respublikası Qanununun *19.0.1-ci maddəsinə əsasən* hazırlanmışdır və heyvanların saxlanması, yetişdirilməsi və istifadə olunması yollarmı müəyyən edir.[18]

1.2. Bütün növ heyvanların, o cümlədən quşların, balıqların və s. heyvanların sağlamlığının qorunmasında, onlardan istehsal edilən məhsulların ərzaq təhlükəsizliyinin təmin edilməsində heyvanların baytarlıq-sanitariya və zootexniki tələblərə uyğun

saxlanması, yetişdirilməsi və istifadə edilməsi bu fəaliyyətlə məşğul olan bütün fiziki və mülkiyyət formasından asılı olmayaraq hüquqi şəxslərin borcudur.

## 2. HEYVANLARIN SAXLANMASI, YETİŞDİRİLMƏSİ VƏ İSTİFADƏ OLUNMASININ TƏŞKİLİ

2.1. Heyvanların saxlanması, yetişdirilməsi və istifadəsi ilə məşğul olaniri heyvandarlıq təsərrüfatlarına və vətəndaşlara mənsub heyvan saxlanan binalar yeraltı suların yaxın olmadığı yerlərdə tikilməli, onların ətrafı hasarlanmalı və yaşıllaşdırılmalıdır.

2.2. İri maldarlıq, qoyunçuluq, donuzçuluq , quşçuluq və s. təsərrüfatlardaheyvanların saxlanması, yetişdirilməsi və istifadə olunması üçün yaradılan fermalar bir-birindən təcrid olunmuş şəkildə 2 şöbədən -istehsalat və təsərrüfat şöbələrindən ibarət olmalıdır.

İstehsalat şöbəsində qaramal saxlanan tövlələr, qoyun, donuz və quşdamları, təsərrüfat şöbəsində isə yem anbarı, yem sexi və başqa heyvandarlıq obyektləri, o cümlədən baytarlıq məntəqəsi yerləşdirilir.

2.3. Yeni tikilən heyvandarlıq obyektləri heyvanlar yerləşdirilməmişdən əvvəl təmizlənməli və dezinfeksiya edilməlidir.

2.4. Müxtəlif növ heyvanların və quşların, eləcə də ayrı-ayrı yaş qrupuna aid heyvanların bir yerdə saxlanmasına yol verilməməlidir.

2.5. Heyvanların sağlam və gümrah olması, onlardan yaxşı çəki artımı, keyfiyyətli ət,süd məhsulları əldə edilməsi məqsədilə onlar hava cərəyanı yaxşı olan binalarda saxlanmalı, binanın içi və ətrafı vaxtaşırı təmizlənməklə ağardılmalı, dezinfeksiya, dezinseksiya və deratizasiya işləri aparılmalıdır.

2.6. Heyvanlar keyfiyyətli yemlərlə və içməli su ilə təmin edilməlidirlər.

2.7. Stasionar şəraitdə saxlanan heyvanlar, xüsusilə boğaz heyvanlar hərgün gəzintiyə buraxılmalıdır.

2.8. Otlaq şəraitində saxlanan heyvanlar vaxtaşırı qan parazitar xəstəliklərinə görə işlənməlidir.

2.9. Heyvanların yoluxucu xəstəliklərdən mühafizəsini təmin etməkməqsədilə yeni qəbul edilən heyvanlar iri heyvandarlıq təsərrüfatlarında təcrid edilmiş halda karantində, vətəndaşlara məxsus olan kiçik təsərrüfatlarda isə ayrı bir yerdə 1 ay müddətində saxlanmaqla, epizootiki vəziyyətləri laboratoriya müayinələri ilə aydınlaşdırıldıqdan sonra ümumi heyvanlar qrupuna daxil edilməlidir.

2.10. Karantin müddətində yeni gətirilən heyvanlar arasında hər hansı birxəstəlik aşkar edilərsə, bu barədə *Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin regional bölməsinə* təcili məlumat verilməlidir və əhalinin, eləcə də heyvanların sağlamlığına təhlükə yaradan heyvanların zərərsizləşdirilməsi təmin edilməlidir.[19]

2.11. Hər hansı bir səbəbdən (infeksiyadan başqa) heyvan saxlanan binalar boşaldılarsa, onlar təmizlənib dezinfeksiya, lazım gəldikdə dezinseksiya və deratizasiya edildikdən 5 gün sonra yeni heyvanlar qrupu ilə komplektləşdirilə bilər.

2.12. Ayrı-ayrı heyvanların sağlamlıq durumunun və maddələr mübadiləsinin vəziyyətini müəyyənləşdirmək məqsədilə onlar planlı şəkildə ildə iki dəfə (yazda və payızda) dispanserizasiyadan keçirilməlidir. Belə ki, kliniki müayinə, qanın, sidiyin, südün və s. laboratoriya analizləri aparılmalı, yemlənmə və saxlanma şəraitləri öyrənilməli, doğub-törəməyə yaramayan heyvanlar çıxdaş edilməlidir.

2.13. Tibbi müayinədən keçməyən, vərəmlə xəstə, eləcə də bədənlərində irinli açıq yarası, qoturluğu olan, habelə yaşı 18-ə çatmayan şəxslərin heyvanlara qulluq etməsinə icazə verilmir.

2.14. Heyvanların saxlanması, yetişdirilməsi və istifadə edilməsi ilə məşğul olan fiziki və hüquqi şəxslər onları həddindən artıq istismar etməməli, ətraf mühitin çirklənməsinə yol verməməli, əldə edilən peyin kütləsi müvafiq qaydada biotermiki zərərsizləşdirilməlidir.

2.15. Heyvanların növlərindən asılı olmayaraq naxır, sürü və vətəndaşlara məxsus qruplarda saxlanan heyvanlar yalnız sağlam heyvanlardan komplektləşdirilməlidir, onların hər hansı məqsəd üçün istifadəsi *baytarlıq mütəxəssislərinin* nəzarəti altında həyata keçirilməlidir.[20]

2.16. Heyvanların kəsimini aparmaq üçün xüsusi şəraiti olan yerlər (kəsimsexi və s.) təşkil edilməli, *Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi* işçilərinin icazəsi olmayan vəekspertizadan keçirilməyən ət, süd məhsullarının, eləcə də xammalın satılmasına yol verilməməlidir.[21]

2.17. Yüksək məhsuldar və sağlam heyvanlar, o cümlədən quşlar, arıailələri yetişdirmək və sanitariya baxımından sağlam məhsul əldə etmək üçün zoobaytarlıq elminin yeni nailiyyətlərindən, qabaqcıl təcrübədən istifadə edilməli, damazlıq işlərinə ciddi fikir verilməli və mütəmadi olaraq seleksiya işləri aparılmalıdır.

2.18. Bu Qaydaların yerinə yetirilməsində məsuliyyət heyvan sahiblərinin, görülən tədbirlərə nəzarət edilməsi isə *Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin* üzərinə düşür.[22]

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2007-ci il 30 yanvar tarixli 19 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**Heyvanların yetişdirilməsi, çoxaldılması, tədarükü (kəsimi), istifadəsi və dövlət baytarlıq nəzarətində olan məhsulların istehsalı, saxlanması, emalı, daşınması, satışı və istifadəsi ilə məşğul olan şəxslərin sağlamlığının heyvan və insanlar üçün ümumi olan yoluxucu xəstəliklərdən qorunması**

## QAYDALARI

## 1. ÜMUMİ MÜDDƏA

Bu Qaydalar "Baytarlıq haqqında" Azərbaycan Respublikası Qanununun *25-ci maddəsinə əsasən* hazırlanmışdır və heyvanların yetişdirilməsi, çoxaldılması, tədarükü (kəsimi), istifadəsi və dövlət baytarlıq nəzarətində olan məhsullarınistehsalı, saxlanması, emalı, daşınması, satışı və istifadəsi ilə məşğul olan şəxslərin sağlamlığının heyvan və insanlar üçün ümumi olan yoluxucu xəstəliklərdən qorunması yollarını müəyyən edir.[23]

## 2. HEYVAN VƏ İNSANLAR ÜÇÜN ÜMUMİ OLAN XƏSTƏLİKLƏRDƏN ƏHALİNİN SAĞLAMLIĞININ QORUNMASI

2.1. Heyvanların yetişdirilməsi, çoxaldılması, tədarükü (kəsimi), istifadəsi və dövlət baytarlıq nəzarətində olan məhsulların istehsalı, saxlanması, emalı, daşınması, satışı və istifadəsi ilə məşğul olan şəxslərin sağlamlığının heyvan və insanlar üçün ümumi olan yoluxucu xəstəliklərdən qorunması məqsədilə onların həmin xəstəliklər barədə ümumi anlayışları olmalıdır.

2.2. Həmin şəxslər fəaliyyət göstərdikləri istehsalat, emal, tədarük və s.müəssisələrdə insan və heyvanlar üçün ümumi olan yoluxucu xəstəliklərdən qorunmaq məqsədilə şəxsi gigiyena qaydalarına ciddi əməl etməlidirlər.

2.3. Heyvan saxlayan şəxslər vaxtaşırı olaraq, heyvanlar arasında epizootiya əleyhinə tədbirlər planına əsasən, ayrı-ayrı xəstəliklərə görə diaqnostik müayinələrin və peyvəndləmə tədbirlərinin aparılmasını təşkil etməli və hər hansı bir qorxulu xəstəlik aşkar edildiyi halda baytarlıq-sanitariya qaydalarına uyğun hərəkət etməlidirlər.

2.4. Heyvan mənşəli məhsulların istehsalı, tədarükü (kəsimi), saxlanması, emalı, daşınması, satışı və istifadəsi ilə məşğul olan şəxslər özlərini insan və heyvanlar üçün ümumi olan xəstəliklərdən qorumaq məqsədilə hazırladıqları məhsulların hər bir partiyasının bu xəstəliklərə görə təhlükəsiz olmasını təmin etmək üçün onları baytarlıq-sanitariya ekspertizasından keçirməlidirlər.

2.5. Heyvanların yetişdirilməsi, çoxaldılması, tədarükü (kəsimi), istifadəsi və dövlət baytarlıq nəzarətində olan məhsulların istehsalı, saxlanması, emalı, daşınması, satışı və istifadəsi ilə birbaşa məşğul olan şəxslər Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən müəyyən edilmiş qaydaya əsasən mütəmadi tibbi müayinədən keçməlidirlər.

2.6. *Dövlət sanitariya nəzarəti orqanları və sanitariya-epidemioloji xidmət müəssisələrinin* işçiləri *Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin* işçiləri ilə birlikdə heyvandarlıqla və heyvandarlıq məhsullarının istehsalı, emalı, tədarükü və s. ilə məşğul olan işçilər tərəfindən sanitar-gigiyena qaydalarına əməl edilməsinə ciddi nəzarət etməli, yoluxucu xəstəliklərə tutulmuş şəxslərin orada işləmələrinin qarşısını almalıdırlar.[24]

2.7. Heyvan və heyvan mənşəli məhsulların istehsalı, emalı, tədarükü, saxlanması, istifadəsi ilə məşğul olan işçilərin öz sağlamlıqlarını qorumaq məqsədilə sanitar və xüsusi geyimləri olmalı, iş vaxtında onlar həmin geyim formalarında işləməli və həmin geyimlər vaxtaşırı yuyulub dezinfeksiya edilməlidir.

2.8. *Dövlət sanitariya nəzarəti orqanları və sanitariya-epidemioloji xidmət müəssisələrinin* və *Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin* xidməti işçiləri mütəmadi olaraq heyvandarlıq işçiləri arasında təhlükəli xəstəliklər barədə maarifləndirici işlər aparmalıdırlar.[25]

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2007-ci il 30 yanvar tarixli 19 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

## Baytarlıq preparatlarının dövriyyəsinə dair vahid statistika hesabatı forması və təqdim edilməsi

## QAYDASI

1. Bu Qayda "Baytarlıq haqqında" Azərbaycan Respublikası Qanununun *31.0.7-ci maddəsinə əsasən* hazırlanmışdır və baytarlıq preparatlarının dövriyyəsinə dair vahid statistika hesabatı formasının tərtibi və təqdim edilməsi yollarını müəyyən edir.[26]

2. Baytarlıq preparatlarının istehsal aprobasiyası, daşınması, saxlanması, idxalı, ixracı, satışı və istifadəsi ilə məşğul olan fiziki və hüquqi şəxslər baytarlıq preparatlarının dövriyyəsinə dair hesabatı bu Qaydanın əlavəsindəki formaya uyğun olaraq hər il rübdə bir dəfə hazırlayaraq, hesabat dövründən sonrakı ayın 5-nə qədər Azərbaycan Respublikasının *Qida Təhlükəsizliyi Agentliyinə (bundan sonra - Agentlik)* təqdim edirlər.[27]

3. *Agentlik* bu Qaydanın 2-ci bəndində göstərilən hesabatları təhlil edərək, onları icmal şəkildə hər il rübdə bir dəfə, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə təqdim edir.[28]

"Baytarlıq preparatlarının dövriyyəsinə dair vahid statistika hesabatı forması və təqdim edilməsi Qaydası"na
ƏLAVƏ

**Baytarlıq preparatlarının dövriyyəsinə dair vahid statistika hesabatı**
**FORMASI**

Hesabatı təqdim edən fiziki və hüquqi şəxslər:
adı___________________________________________________
yerləşdiyi rayon(şəhər)_______________________________
ünvanı_______________________________________________
fəaliyyət növü_________________________________________
hesabat verən fiziki və hüquqi şəxslərin sayı__________

(*Agentlikdə* doldurulur) [29]

| İdarə sənədlərinin təsnifatı üzrə formanın kodu | Müəssisənin identifikasiya (statistik) kodu | VÖEN |
|---|---|---|
| | | |

**Baytarlıq preparatlarının dövriyyəsi**

| Sıra -si | Preparatın adı | Preparatın növü | İstehsal edən ölkənin, şirkət və ya firmanın adı | Ölçü vahidi | Hesabat dövrünün əvvəlinə qalıq | Mədaxil | Məxaric | Hesabat dövrünün axırına qalıq |
|---|---|---|---|---|---|---|---|---|
| A | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| | | | | | | | | |

Hesabat tərtib edənin soyadı, adı, atasının adı_______________

___________________ ___________________

(vəzifə) (imza)

"____" _________ 200___ il

**Qeyd:** Hesabat forması fiziki və hüquqi şəxslər tərəfindən hesabat rübündən sonrakı ayın 5-nə qədər *Agentliyə* təqdim olunur. *Agentlik* icmal hesabatı ayın 20-dən gec olmayaraq Dövlət Statistika Komitəsinə təqdim edir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2007-ci il 30 yanvar tarixli 19 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**Baytarlıqda istifadə edilən bioloji, güclü təsiredici və resept əsasında buraxılan baytarlıq preparatlarının**

## SİYAHISI

### 1. ÜMUMİ MÜDDƏA

Bu Siyahı "Baytarlıq haqqında" Azərbaycan Respublikası Qanununun *33.8-ci maddəsinə əsasən* hazırlanmışdır və baytarlıqda istifadə edilən bioloji, güclü təsiredici və resept əsasında buraxılan baytarlıq preparatlarını müəyyən edir. [30]

### 2. BAYTARLIQDA İŞLƏDİLƏN ƏSAS BAYTARLIQ BİOLOJİ PREPARATLARININ SİYAHISI

### 2.1. Vaksinlər

| | |
|---|---|
| 1. | Qarayara əleyhinə vaksinlər |
| 2. | İribuynuzlu heyvanlarda bruselyoz əleyhinə vaksinlər |
| 3. | Qoyun və keçilərdə bruselyoz və qoçlarda infeksion epididemit əleyhinə vaksinlər |
| 4. | Heyvanların leptospirozu əleyhinə vaksinlər |
| 5. | Heyvanlarda Salmonelyoz əleyhinə vaksinlər |
| 6. | Donuzların paratif, pasterelyoz və diplokok septisemiyası əleyhinə vaksinlər |
| 7. | Xəzdərili heyvanların, quşların, buzov və çoşkaların formoltiomersal xəstəliyi əleyhinə vaksin |
| 8. | Heyvanlar və quşlarda pasterellyoz əleyhinə vaksinlər |
| 9. | Donuzlarda qızıl yel əleyhinə vaksinlər |
| 10. | İri və xırda buynuzlu heyvanların emfizematoz karbunkul xəstəliyi əleyhinə vaksin lər |
| 11. | Qoyunlarda bradzot, infeksion enterotoksemiya, yaman keyfiyyətli şiş və quzularda dizenteriya əleyhinə qatılaşmış polivalent vaksinlər |
| 12. | Qoyunlarda klostridiozu əleyhinə polivalent vaksin |
| 13. | Buzovların, quzu və çoşkaların diplokok septisemiyası əleyhinə vaksinlər |
| 14. | İri və xırda buynuzlu heyvanların nekrobakterioz xəstəliyi əleyhinə vaksinlər |
| 15. | İribuynuzlu heyvanların, davarların və dəvələrin dermatomikoz, mikrosporiya və trixofitiya xəstəliyi əleyhinə vaksinlər |
| 16. | Tetanus əleyhinə qatılaşmış anatoksin |
| 17. | Xlamidioz əleyhinə inaktivasiya edilmiş emulsiyalı vaksin |
| 18. | Quşların spiroxetozu əleyhinə vaksin |
| 19. | İribuynuzlu heyvanlarda teylerioz əleyhinə vaksin |
| 20. | İribuynuzlu heyvanların, davarların və donuzların dabaq xəstəliyi əleyhinə vaksinlər |
| 21. | İribuynuzlu heyvanların infeksion keratokonyuktivit xəstəliyi əleyhinə vaksin |
| 22. | İribuynuzlu heyvanların infeksion rinotraxeit xəstəliyi əleyhinə vaksin |
| 23. | İribuynuzlu heyvanların paraqrip -3 xəstəliyi əleyhinə vaksin |

| | |
|---|---|
| 24. | Qaramalın rota, korona, herpesvirus və eşerixialı diareya xəstəliyi əleyhinə vaksin |
| 25. | İribuynuzlu heyvanlarda taun əleyhinə vaksin |
| 26. | Qoyunların çiçək xəstəliyi əleyhinə vaksinlər |
| 27. | Çoşkaların anaerob enterotoksemiya xəstəliyi əleyhinə vaksin |
| 28. | Quduzluq əleyhinə vaksinlər |
| 29. | Aueski xəstəliyi əleyhinə vaksinlər |
| 30. | Donuzların taunu əleyhinə vaksinlər |
| 31. | Donuzların Teşen xəstəliyi əleyhinə vaksinlər |
| 32. | Ət yeyənlərin taunu əleyhinə vaksinlər |
| 33. | Quşların infeksion bronxitinə qarşı vaksinlər |
| 34. | Quşların bursal xəstəliyi (Qamboro) əleyhinə vaksinlər |
| 35. | Quşların Nyukasl xəstəliyi əleyhinə vaksinlər |
| 36. | Quşların infeksion bronxiti, Nyukasl xəstəliyi və yumurtlamanın azalması sindromu əleyhinə vaksin |
| 37. | Quşların infeksion ensefalomit və çiçək xəstəliyi əleyhinə vaksinlər |
| 38. | Quşların larinqotraxeiti əleyhinə vaksinlər |
| 39. | Quşların Marek xəstəliyi əleyhinə vaksinlər |
| 40. | Quşların infeksion bursal və viruslu artriti əleyhinə vaksinlər |

### 2.2. Serumlar

| | |
|---|---|
| 1. | Kənd təsərrüfatı heyvanlarının Eşerixiozuna qarşı antiadgeziv və antitoksik serum |
| 2. | Qarayara əleyhinə serumlar |
| 3. | Prisipitasiyaedici qarayara serumu |
| 4. | Salmonellyozlara qarşı polivalent antitoksiki serum |
| 5. | İribuynuzlu heyvanların rinotraxeiti, paraqrip 3, viruslu diareya, adenoinfeskiyasına qarşı serum |
| 6. | İribuynuzlu heyvanların pasterelyozuna, salmonelyozuna, paraqrip -3 və infeskion rinotraxeitinə qarşı serumlar |
| 7. | Dabağın seroloji diaqnostikasında işlədilən spesifik serumlar |
| 8. | Heyvanların leptospirozu əleyhinə serumlar |
| 9. | Buzovların, quzuların, qoyun və quşların paratifi və kolibakteriozu əleyhinə polivalent antitoksiki serum |
| 10. | Buzovların, çoşkaların, quzuların, qoyun və quşların paratifi əleyhinə polivalent |
| 11. | Aqqlyutinasiyaedici kampilobakterioz serumu |
| 12. | Aqqlyutinasiyaedici listerioz serumu |
| 13. | Lyumenesiyaedici listerioz serumu |
| 14. | Pozitiv ovis serumu |
| 15. | Neqativ serum |
| 16. | Donuzların qızıl yeli əleyhinə serum |
| 17. | Buzovların, quzu və çoşkaların diplokok septisemiyası əleyhinə serum |
| 18. | Pozitiv manqo serumu |
| 19. | Flyurostentli antirabik qlobilin FAQ -1 |
| 20. | Xlamidiozun törədicisinin diaqnostikası üçün flyuronstetli qlobilin və nəzarəti serumlar qrupu dəsti |
| 21. | Komplimentin birləşməsi reaksiyası üçün hemolitik serum |

### 2.3. Antigenlər

| | |
|---|---|
| 1. | Yeni doğulmuş buzovların kolibakteriozunun profilaktikası üçün protektiv |
| 2. | Aqqlyutinasiya reaksiyası üçün kampilobakteriozlu antigen |
| 3. | Seroloji reaksiyalar üçün dabaq antigenləri |
| 4. | Manqo xəstəliyinə görə plastinkalı AR üçün antigen |
| 5. | Prisipitasiya reaksiyası (Askoli) üçün qarayara antigeni |
| 6. | Heyvan və quş xəstəliklərinin diaqnostikası üçün işlədilən diaqnostikumlar |
| 7. | Brusellin |
| 8. | Mallein |
| 9. | Tuberkulin |
| 10. | Bakteriofaqlar |

## 3. BAYTARLIQDA İŞLƏDİLƏN GÜCLÜ TƏSİREDİCİ DƏRMAN VASİTƏLƏRİNİN SİYAHISI

1. Amprolium
2. Albendazol
3. Amoksinyekt
4. Adrenokortikosteroid hormon, inyeksiya üçün
5. Azidin
6. Adrenalin hidroxlorid məhlulu
7. Akseroftol məhlulu
8. Aminazin məhlulu
9. Ampioks
10. Asetilxolin-xlorid
11. Aerodit
12. Baykoks
13. Baytril
14. Berenil
15. Brevikollin
16. Belladonna tinktura

17. Dezoksikortikosteron – asetat
18. Dezoksikortikosteron - asetat məhlulu
19. Diklosasillin (natrium duzu)
20. Dimedrol
21. Disulformin
22. Etonium
23. Ekmolin
24. Emqal
25. Erqotin
26. Etaminal natrium (nembutal)
27. Flavomisin
28. Farmazin
29. Fenbendazol
30. Fenol maye
31. Fenol xalis
32. Flavakridin hidroxlorid (tripaflavin)
33. Fradizin
34. Ftazin
35. Heksenal
36. Hidrogen peroksidin qatı məhlulu
37. Xlorid turşusu
38. Xiniofon (yatren)
39. Xloralhidrat
40. Xloroform
41. İzoniazid (tubazil)
42. İmizol
43. Koksisan
44. Kolivet
45. Kolmik E
46. Kanavetin
47. Karbon 4 -xlorid
48. Koksidin
49. Kliramin
50. Klopidol - 25
51. Kortizon
52. Kortizon-asetat
53. Qeomisin
54. Qrizeofulvin
55. Levamizol
56. Mastijet Fort
57. Meqestrol asetat
58. Mepatar
59. Metilurasil
60. Morfovetin
61. Naqanin
62. Novosin
63. Noroleandomiksin
64. Oksitetrasiklin
65. Oksitosin
66. Olemorfovetin
67. Panakur
68. Poliverkan
69. Penersin A
70. Pituitrin
71. Pituitrin, inyeksiya üçün
72. Proqesteron
73. Rolenol
74. Rompun
75. Sakoks
76. Solvovetin
77. Sarı civə oksidi
78. Spektam
79. Suisinxron
80. Sinestrolun yağda məhlulu
81. Tilozin
82. Tilozin tartarat
83. Tilozin Qanadeksil inyeksiya məhlulu
84. Testosteron propionatın yağda məhlulu
85. Tetramizol
86. Tiamutin
87. Trimetosul
88. Terravetin – 500

89. Tetasin kalsium
90. Tetraxlorid
91. Tiopental - natrium
92. Tireoidin
93. Trimekain
94. Trimerazin
95. Trixopol
96. Vermitan
97. Veriben
98. Vetoflok
99. Vetrimoksin

### 4. BAYTARLIQDA İSTİFADƏ EDİLƏN BİOLOJİ VƏ GÜCLÜ TƏSİREDİCİ DƏRMAN VASİTƏLƏRİNİN BURAXILMASI

4.1. Bu Siyahının 1-ci bölməsində göstərilən bioloji preparatların tətbiqibaytar mütəxəssisləri tərəfindən həyata keçirilir və bu preparatlar reseptsiz buraxılır.

4.2. Bu Siyahının 2-ci bölməsində göstərilən güclü təsiredici dərmanvasitələri baytar mütəxəssislərinin yazdığı reseptlər əsasında buraxılır.

### İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


1. 7 iyul 2008-ci il tarixli **151** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 7, maddə 673**)
2. 13 fevral 2015-ci il tarixli **38** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 22 fevral 2015-ci il, 42**, **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 2, maddə 227** )
3. 1 dekabr 2018-ci il tarixli **518** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 5 dekabr 2018-ci il, 274**, **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 12, II kitab, maddə 2721**)
4. 10 aprel 2020-ci il tarixli **137** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 14 aprel 2020-ci il, 69 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 4, maddə 484)**
5. 21 sentyabr 2020-ci il tarixli **349** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 24 sentyabr 2020-ci il, 194 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 9, maddə 1222** )
6. 30 oktyabr 2021-ci il tarixli **329** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 4 noyabr 2021-ci il, 239, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 10, maddə 1196**)
7. 21 iyun 2022-ci il tarixli **238** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 23 iyun 2022-ci il, 131 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 6, maddə 679)**
8. 7 mart 2023-cü il tarixli **78** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikası Nazirlər Kabinetinin rəsmi internet saytı, 10 mart 2023-cü il, "Xalq" qəzeti, 14 mart 2023-cü il, 56** )


### QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 1 dekabr 2018-ci il tarixli **518** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 5 dekabr 2018-ci il, 274** , **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 12, II kitab, maddə 2721** ) ilə preambuladan "**1.18-ci,**" sözləri çıxarılmışdır.

